*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 4 may 2016-cı il № 33 (2048) Qiymıəti 25 qəpik

# Ali Baş Komandan, Prezident İlham Əliyev Tərtər rayonundakı "N" hərbi hissəsində olub

***Mayın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Ermənistan silahlı qüvvələri ilə təmas xəttində yerləşən Tərtər, Ağdam və Bərdə rayonlarında olublar.***



Dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyev əvvəlcə Tərtər rayonundakı "N" hərbi hissəsinə gəldi.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Ali Baş Komandan İlham Əliyevə raport verdi.

Prezident İlham Əliyev hərbi hissənin qərargahı ilə tanış oldu.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov təmas xəttindəki son vəziyyət barədə Ali Baş Komandan İlham Əliyevə məlumat verib.

Dövlətimizin başçısı hərbi hissənin yeməkxanası ilə də tanış oldu. Yeməkxana ən müasir avadanlıqlarla təchiz edilib. Burada hərbçilərin dolğun qidalanmaları üçün hər cür şərait yaradılıb.

Hərbi hissənin kazarması da müasir standartlara cavab verir. Kazarmada əsgərlərin hərbi bilik və bacarıqlarını daha da artırmaları üçün müvafiq şərait formalaşdırılıb. Yataq otaqları da hərtərəfli təchizatı ilə diqqəti çəkir.

Hərbi hissə ilə tanışlıqdan sonra Ali Baş Komandan şəxsi heyətlə görüşdü.

**Prezident İlham Əliyev dedi:**

- Ordu quruculuğu siyasətimizin prioritetidir. Bu, təbiidir. Çünki biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib. 1994-cü ildə atəşkəs rejimi yaradılıbdır. Ancaq buna baxmayaraq, Ermənistan atəşkəs rejimini daim kobudcasına pozur. Xüsusilə görəndə ki, onlara qarşı münaqişə ilə bağlı beynəlxalq təzyiq artır, onlar atəşkəsi daha çox pozurlar və müxtəlif silahlı təxribatlara əl atırlar.

Beynəlxalq ictimaiyyət münaqişə ilə bağlı artıq tam məlumatlıdır. Biz bu illər ərzində bütün dünyaya sübut edə bilmişik ki, zərərçəkən tərəf bizik. Ermənistan işğalçı dövlətdir, Azərbaycan xalqına qarşı soyqırımı törədib, torpaqlarımızı işğal edib və bu işğalı davam etdirir. Bu məsələ ilə məşğul olan Minsk Qrupunun həmsədrləri də son vaxtlar dəfələrlə bəyan etmişlər ki, status-kvo qəbuledilməzdir və dəyişməlidir.

Bu, nə deməkdir? O deməkdir ki, işğala son qoyulmalıdır. Bu, birbaşa Ermənistana ünvanlanan siqnaldır. Buna görə və eyni zamanda, görəndə ki, Azərbaycan dünya miqyasında daha da çox dəstək qazanır, onlar danışıqları pozmaq və işğalçı siyasəti davam etdirmək üçün vaxtaşırı silahlı təxribatlara əl atırlar. Biz bunu yaxın keçmişdə görmüşük. Xüsusilə 2014-cü ildə yay aylarında bizim mövqelərimizə hücum çəkmişlər. O vaxt da bizim ordumuz layiqli cavab verdi. Həmin ilin noyabrında danışıqlarda müəyyən ümidlər yaranandan sonra Ağdam rayonunda, onların özlərinin verdiyi məlumata görə, 47 min nəfərlik şəxsi heyətlə genişmiqyaslı təlimlər keçirmişlər. Bu, sırf təxribat xarakterli bir addım idi. Azərbaycan tərəfi bir neçə gün özünü çox təmkinlə apardı. Ancaq ondan sonra Ermənistanın iki hərbi helikopteri bizim mövqelərimizə hücum çəkdi. Azərbaycan Ordusu da onların birini məhv etdi. Bundan istifadə edən Ermənistan bizi günahlandırdı və danışıqlar prosesində yenə də durğunluq yarandı. Bu hadisəni bəhanə gətirərək bizi ittiham etməyə başladılar ki, Azərbaycan atəşkəsi pozur. Məqsəd də aydın idi ki, yenə də danışıqlar aparılmasın, işğalçı siyasət yenə də davam etdirilsin.

Bu ilin əvvəlindən danışıqlar prosesində müəyyən irəliləyiş müşahidə olunur. Bizdə olan məlumata görə, Ermənistana həmsədr ölkələr tərəfindən ciddi təzyiqlər göstərilir. Düzdür, onlar bunu açıq şəkildə bəyan etmirlər. Onlar həmişə çalışırlar ki, balans saxlasınlar. Amma həqiqət ondan ibarətdir ki, bu gün münaqişənin sülh yolu ilə həllini əngəlləyən tərəf Ermənistandır. Bunu görərkən, əlbəttə ki, onlar növbəti təxribatlara əl atmağa qərar verdilər. Bu da aprelin əvvəlində baş verdi. Yenə də onlar silahlı təxribat törətmiş, bizim mövqelərimizə hücum çəkmişlər. Azərbaycan Ordusu böyük məharətlə və peşəkarlıqla əks-hücum əməliyyatı keçirdi, düşməni yerinə oturtdu və təmas xəttində bizim mövqelərimiz daha da möhkəmləndi.

Ermənistan tərəfinin xahişi ilə aprelin 5-də biz razılıq verdik ki, atəşkəs bərpa edilsin. Biz müharibə istəmirik. Biz istəyirik ki, məsələ sülh yolu ilə həll olunsun. Ancaq həll olunsun. Sadəcə olaraq görüntü naminə danışıqların aparılmasının heç bir mənası yoxdur. Beləliklə, aprelin 5-də razılığa gəlindi ki, atəşkəs rejimi bərpa edilməlidir. Biz buna əməl etdik, bu gün də əməl edirik. Ancaq əfsuslar olsun, Ermənistan yenə də özünü qeyri-səmimi aparır və aprelin 5-dən bu günə qədər elə gün olmur ki, atəşkəsi pozmasın. İlk günlərdə çalışırdı ki, bizim mövqelərimizə hücum çəksin, bizi əldə etdiyimiz o mövqelərdən çıxarsın. Görəndə ki, bu alınmır, Azərbaycan əsgəri, zabiti öz doğma torpağında möhkəm dayanır, mülki əhaliyə qarşı silahlı təxribatlara başladılar. Bizim kəndlərimiz atəşə tutulub. Mülki şəxslər həlak olub, yaralanıb. Bizim 500-dən çox evimizə ziyan dəyib, 100-dən çox ev tamamilə dağıdılıb, yaxud da ki, yandırılıb. Bax budur, erməni faşizminin eybəcər sifəti. Onlar birinci Qarabağ müharibəsində də belə hərəkətlər edirdilər, Azərbaycan xalqına qarşı Xocalı soyqırımı törədilmişdir. Bu gün də döyüş meydanında görəndə ki, gücü çatmır, dinc əhalini hədəfə götürür.

Azərbaycan dövləti, Azərbaycan Ordusu heç vaxt mülki əhali ilə müharibə aparmayıb və aparmır. Biz sadəcə olaraq, düşmənin atəş mövqelərini bizə açılan atəş zamanı böyük ustalıqla məhv edirik. Ancaq eyni zamanda, Azərbaycan Ordusu öz vətəndaşlarını qorumalıdır, qoruyur və qoruyacaq. Münaqişənin həlli Ermənistan dövlətinə də imkan verəcək ki, onlar da müstəqil dövlət qura bilsin. Mən yenə də ümid edirəm ki, onların işğalçı siyasəti sona çatacaq. Çünki bunun başqa yolu yoxdur. Azərbaycan xalqı heç vaxt bu vəziyyətlə barışmayacaq və son hadisələr bunu bir daha göstərdi. Bizə qarşı edilən silahlı təxribat cavabsız qalmadı. Bunu hamı bilir. Ermənistan rəhbərliyi nə qədər tez anlasa ki, onlar ancaq Azərbaycan ilə sülh şəraitində inkişaf edə bilərlər, münaqişəyə bir o qədər tez son qoyular.

**(Ardı 2-ci səhifədə)**

# Ali Baş Komandan, Prezident İlham Əliyev Tərtər rayonundakı “N” hərbi hissəsində olub

(Əvvəli 1-ci səhifədə)

Münaqişənin həlli isə beynəlxalq hüququn norma və prinsipləri əsasında olmalıdır. Bütün beynəlxalq təşkilatlar - BMT, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, Qoşulmama Hərəkatı və digər təşkilatlar Azərbaycanın haqlı mövqeyini müdafiə edir. Heç bir beynəlxalq təşkilat Ermənistanın işğalçı siyasətini dəstəkləmir. Dünyada heç bir ölkə Azərbaycanın ərazi bütövlüyünü şübhə altına almır. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. İşğal edilmiş Dağlıq Qarabağ və digər torpaqlar bizim tarixi torpaqlarımızdır. Azərbaycan vətəndaşları o torpaqlarda yaşamalıdır və yaşayacaqlar.

Bir daha demək istəyirəm, biz çalışacağıq ki, Ermənistanı danışıqlar vasitəsilə düzgün yola gətirək. Diplomatik, siyasi, iqtisadi təzyiqlərimizi artıracağıq, təmas xəttində mövqelərimizi gücləndirəcəyik. Əgər bizə qarşı növbəti erməni silahlı təxribatı törədilərsə, yenə də lazımlı, tutarlı cavab veriləcək və nəticə də eyni olacaq. Çünki bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Ordumuzun maddi-texniki bazası böyük dərəcədə möhkəmlənmişdir, artmışdır. Ən müasir silah, texnika alınır və bu gün Azərbaycan Ordusu maddi təchizat baxımından güclü ordular sırasındadır. Orduda nizam-intizam yüksək səviyyədədir. Döyüş qabiliyyəti ən yüksək səviyyədədir. Aprel döyüşləri bunu göstərdi. Ruh yüksəkliyi var. Ordumuzun, əsgərlərimizin, zabitlərimizin mənəvi-psixoloji durumu çox müsbətdir. Nəinki orduda, bütün cəmiyyətdə vətənpərvərlik hissi çox yüksəkdir. Bütün cəmiyyət vahid amal uğrunda birləşib. Bizim üçün Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən vacib məsələ yoxdur. Bu, ən birinci məsələdir. Biz bu məsələni həll etməliyik və edəcəyik.





Mən həmişə orduda xidmət edənlərə böyük hörmətlə yanaşmışam. Ordu quruculuğu üçün nə lazımdırsa, o da olacaq. Onu da edirik. Ən böyük xərclər hərbi xərclərdir. Artıq neçə ildir ki, bu, belədir. Bəzən müxtəlif ölkələrdən olan ermənipərəst siyasətçilər məni günahlandırırdılar ki, nə üçün Azərbaycanda hərbi büdcə getdikcə artır? Ona görə ki, biz işğala məruz qalmışıq. Əgər bu işğal olmasaydı, əlbəttə ki, buna ehtiyac olmazdı. Ancaq həyat göstərdi ki, biz nə qədər haqlıyıq. Əgər bizdə güclü hərbi imkanlar olmasaydı, bu gün təmas xəttində vəziyyət fərqli ola bilərdi. Döyüş qabiliyyətinin artırılması, maddi-texniki təchizat, silah, texnikanın alınması, vətənpərvərlik ruhu, hərbçilərimizin peşəkarlığı, məharəti, aprel döyüşlərində göstərdikləri şücaət və qəhrəmanlıq bizim böyük sərvətimizdir.

Siz bu gün burada düşmənlə üz-üzə xidmət edirsiniz. Torpaqlarımızı, vətəndaşlarımızı müdafiə edirsiniz. Bu, böyük, şərəfli missiyadır.

Sizi bütün uğurlar münasibətilə ürəkdən təbrik edirəm. Yeni uğurlar arzulayıram. Bundan sonra da Vətənə həmişə bağlı olun, Vətəni sevin, torpağımızı qoruyun, vətəndaşları müdafiə edin. Eşq olsun, Azərbaycan Ordusuna!

**Müdafiə naziri general-polkovnik Zakir Həsənov dedi:**

- Möhtərəm Prezident, cənab Ali Baş Komandan.

Bütün şəxsi heyət adından Sizə dərin minnətdarlığımızı bildiririk. Silahlı Qüvvələrə yüksək qayğı göstərirsiniz.

Cənab Ali Baş Komandan, Sizin diqqət və qayğınız nəticəsində bu gün Silahlı Qüvvələr silah və texnika ilə tam şəkildə, yüksək səviyyədə təmin edilib, sosial məsələlər həll olunub. Göstərilən qayğını, etimadı doğrultmaq üçün şəxsi heyət daim döyüş hazırlığı səviyyəsini yüksəldir və möhkəmlənir.



Möhtərəm cənab Prezident, Sizi əmin edirəm ki, Silahlı Qüvvələrin şəxsi heyəti bütün əmrlərinizi qısa müddətdə yerinə yetirməyə hazırdır və qadirdir. Sağ olun.

**Prezident İlham Əliyev:**

- Sağ olun. Təmas xəttində erməni silahlı təxribatından sonra yeni vəziyyət yaranmışdır. Bu gün mənə məruzə edildi. Bu vəziyyət əvvəlki vəziyyətdən fərqlidir. Bir daha onu göstərir ki, biz təmas xəttində üstünlüyü tam əldə etmişik. Əlbəttə, biz bundan sonra çalışacağıq ki, təmas xəttində mövqelərimizi daha da möhkəmləndirək. Buna nail olmaq üçün bütün lazımi tədbirlər görülür. Hesab edirəm, qarşı tərəf də artıq anlayıb ki, silahlı yolla hansısa maraqları təmin etmək üçün heç bir əsas yoxdur. Bütün səylər əbəsdir. Sadəcə, bölgədə sülhün bərqərar olması üçün işğala son qoyulmalıdır. Əminəm ki, belə də olacaq.

* * *

Sonra Ali Baş Komandan təmas xəttində Ermənistan ordusunun törətdiyi təxribatların qarşısını alarkən şücaət göstərmiş döyüşçülərə hədiyyələr təqdim etdi.

**AZƏRTAC**

# Ermənilərin artilleriya atəşləri nəticəsində Tərtərdə dağılmış evlərlə tanışlıq

***Mayın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva aprelin 27-dən 28-nə keçən gecə işğalçı Ermənistan ordusu tərəfindən iriçaplı silahlar və artilleriya qurğularından açılmış atəş nəticəsində Tərtər şəhərinin Fikrət Əmirov küçəsində dağılmış evlərə baxdılar.***



Tərtər sakini Mübariz Həsənovun evi də düşmən tərəfindən yararsız vəziyyətə salınıb. Dövlətimizin başçısına məlumat verildi ki, ermənilərin törətdiyi vəhşiliklər nəticəsində Tərtərin yaşayış məntəqələrində 256 evə, 4 məktəbə, 2 həkim məntəqəsinə, 1 uşaq bağçasına ziyan dəyib, 32 ev tamamilə dağıdılıb.

**Ev sahibi Mübariz Həsənov:** Aprelin 27-dən 28-nə keçən gecə saat 2 radələrində birinci mərmi 6 nömrəli məktəbin həyətinə düşdü. Həmin vaxt mən evdə idim. Mən barının arxasına keçdim ki, qəlpə dəyməsin. Sonra gördüm qumbara düşdü. Mən yola çıxdım, ondan sonra da ikinci mərmi bizim evə düşdü.

**Prezident İlham Əliyev:** Bütün lazımi tədbirlər görülür, hamısı gərək aktlaşdırılsın, sənədləşdirilsin, evin şəkli, videosu çəkilsin, dəymiş ziyan müəyyənləşdirilsin. Sonra biz onları məhkəməyə verəcəyik. Azərbaycan dövləti kömək edəcək, vəsait ayıracağıq. Bütün bu evlər bərpa olunmalıdır.

Xasay İbrahimova məxsus ev də erməni silahlı birləşmələrinin iriçaplı silahlardan, "Qrad" qurğusu, top və tanklardan istifadə etməklə açdıqları atəşlər nəticəsində dağılıb.

**Prezident İlham Əliyev:** Bütün evlər bərpa olunacaq. İndi icra hakimiyyətinin nəyə gücü çatırsa etsin, çatmırsa onda hökumətdən vəsait ayrılacaq. Aktlaşmadan sonra biz dərhal işə başlamalıyıq.

Rayon icra hakimiyyətinin başçısı Müstəqim Məmmədov: Cənab Prezident, şəhərdəki çoxmənzilli binaların həmısının zirzəmiləri təmizlənib, su, işıq, telefon xətləri çəkilib. Vətəndaşlar istifadə edirlər.

**Evin sahibəsi:** Ermənilər elə bilirdilər ki, bizim iradəmizi qıracaqlar. Bir qarış da torpaq verməyəcəyik. Güclü ordumuz, igid oğlanlarımız var.

(Ardı 3-cü səhifədə)

# Ermənilərin artilleriya atəşləri nəticəsində Tərtərdə dağılmış evlərlə tanışlıq

(Əvvəli 2-ci səhifədə)

**Prezident İlham Əliyev:** Bəli. Keçən ayın əvvəlində ordumuz gücünü göstərdi.

**Evin sahibəsi:** Siz sağ olun. Ev düzələcək. Əsas odur ki, insanlara heç nə olmasın.



Rasim Bayramova məxsus ev də ermənilərin cəbhəboyu bütün istiqamətlərdən iriçaplı silahlardan Azərbaycanın yaşayış məntəqələrini şiddətli atəşə məruz qoyması nəticəsində bərbad vəziyyətə düşüb.

* * *

Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva cəbhə xəttinin 200 metrliyində yerləşən Tərtər rayonunun Qapanlı kəndinə gəldilər. Məlumat verildi ki, düşmənin açdığı atəş nəticəsində bu kənddə 55 evə ziyan dəyib. Onlardan 14-ü tamamilə dağıdılıb.

Dövlətimizin başçısı və xanımı artilleriya zərbəsi nəticəsində evi dağılmış kənd sakini Abbas Abbasovun həyətində oldular.

**Prezident İlham Əliyev:** Salam, necəsiniz?

**Abbas Abbasov:** Çox sağ olun, cənab Prezident, əla.

**Prezident İlham Əliyev:** Bura təmas xəttinə ən yaxın olan yerdir.

**Abbas Abbasov:** Bəli, ən yaxın məsafədir.

**Prezident İlham Əliyev:** Narahat olmayın, bunların hamısı bərpa ediləcək. Lazımi vəsait ayrılacaq, kömək göstəriləcək. Dəymiş bütün ziyan aradan qaldırılacaq. Narahat olmayın, burada möhkəm yaşayın, yaradın, qurun. Bura Vətənimizdir, Azərbaycan torpağıdır.

Sonda xatirə şəkli çəkdirildi.

* * *

Daha sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Tərtər sakinləri ilə görüşdülər.

**Sakinlər:** Cənab Prezident, xoş gəlmisiniz. Tərtərdə Sizi qarşılamaq bizim üçün çox xoşdur. Allah Sizdən razı olsun. Allah Sizi qorusun.

**Prezident İlham Əliyev:** Sağ olun. Gəlmişəm sizi görüm, bu ağır günlərdə sizinlə bərabər olum, öz hörmətimi, məhəbbətimi ifadə edim. Siz burada düşmənlə üz-üzə yaşayırsınız, təmas xəttinə 200 metr məsafə var. Siz öz torpağınızda, Azərbaycan torpağında yaşayırsınız, özü də möhkəm yaşayırsınız.

**Sakin:** Sizə arxalanıb yaşayırıq, cənab Prezident.

**Prezident İlham Əliyev:** Biz sizinlə fəxr edirik.

**Sakinlər:** Çox sağ olun. Biz də Sizinlə fəxr edirik. Allah Sizi, övladlarınızı qorusun! Biz Sizi dəstəkləyirik, Sizin arxanızdayıq. Sizə, ordumuza, ulu öndərimizin qoyub getdiyi müstəqil Azərbaycana, dövlətimizə, dövlətçiliyimizə güvənirik.



**Prezident İlham Əliyev:** Sizin kimi insanlar xalqımızın qürur mənbəyidir. Bax, siz burada, ən çətin, ən təhlükəli yerdə yaşayırsınız, qurursunuz, yaradırsınız. Dəymiş bütün ziyan aradan götürüləcək, vəsait ayrılacaq. Vətəndaşlar narahat olmasınlar. Azərbaycan dövləti güclü dövlətdir, sizin arxanızdadır. Dağılmış bütün evlər bərpa olunacaq, hər şey yenidən düzələcək. Siz möhkəm olun.

**Sakin:** Cənab Prezident, biz möhkəmik. Biz əsgərlərimizin arxasındayıq, Sizə, böyük ordumuza güvənirik, arxalanırıq. Yaxşı ki, varsınız. Xanımınız da sağ olsun, Siz də. Çox sağ olun, minnətdarıq.

**Prezident İlham Əliyev:** Ordumuz döyüş meydanında öz gücünü göstərdi. Ancaq görün, indi ermənilər nə edirlər, mülki əhaliyə atəş açırlar. Ordumuza gücü çatmır, sizi atəşə tuturlar.

**Sakin:** Heç bizə də gücü çatmır.

**Prezident İlham Əliyev:** Əlbəttə, sizə də gücü çatmır.

**Sakin:** Biz qadınlar da döyüşə getməyə hazırıq. Qorxmuruq, yaşayacağıq, evimizdən də çıxmayacağıq. Təkcə bu torpaqlarda yox, Allah qoysa, o torpaqları alıb gedib orada da, Şuşada da yaşayacağıq. Biz Sizə, Mehriban xanıma güvənirik.

**Prezident İlham Əliyev:** Sağ olun.

Sonra xatirə şəkli çəkdirildi.

**AZƏRTAC**

# Prezident İlham Əliyev Bərdə Müalicə-Diaqnostika Mərkəzində müalicə alan yaralılara baş çəkib

***Mayın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Bərdə şəhərindəki Müalicə-Diaqnostika Mərkəzinə baş çəkdilər.***



Bu tibb ocağı ölkəmizdə səhiyyə islahatları çərçivəsində yaradılan və ən müasir standartlara cavab verən ilk müalicə diaqnostika mərkəzlərindən biridir. Düşmənin dinc əhalini hədəfə alması nəticəsində Ağdamın Çəmənli və Qaradağlı kəndlərinin yaralanmış 3 sakini - Zahid Rəhimov, Elgiz Qarayev və Anar Abdullayev burada müalicə olunurlar. Dövlətimizin başçısı və xanımı onların vəziyyəti ilə maraqlandılar və tezliklə sağalmalarını arzuladılar.

**Prezident İlham Əliyev:** Necəsiniz? Həkimlər sizə yaxşı baxırlar. Mənə məlumat verirlər ki, sizin vəziyyətiniz yaxşılaşıb. Yaxşı müalicə alırsınız. Əminəm ki, tezliklə buradan çıxıb evinizə qayıdacaqsınız. Mən gəlmişəm ki, sizi görüm, öz sözümü deyim. Siz erməni silahlı təxribatından əziyyət çəkmisiniz. Görürsünüz ki, onlar mülki əhaliyə qarşı müharibə aparırlar. Evlər dağılır, insanlar həlak olur, mülki şəxslər yaralanırlar. Bu, hərbi cinayətdir. Ermənilər döyüş meydanında məğlub olurlar, mülki əhaliyə atəş açırlar.

**Yaralı:** Cənab Prezident, diqqətinizə görə təşəkkür edirik.

**Prezident İlham Əliyev:** Tezliklə sağalacaqsan, hər şey yaxşı olacaq. Eşitmə qabiliyyətin bərpa olunacaq.

**Yaralı:** İnşallah.

**Rayon icra hakimiyyətinin başçısı Vidadi İsayev:** Cənab Prezident, ali təhsilli həkim-stomatoloqdur.

**Prezident İlham Əliyev:** Hansı kənddənsən?

**Yaralı:** Ağdam rayonunun Çəmənli kəndindənəm.

**Prezident İlham Əliyev:** Bir qədər əvvəl oradan keçmişəm.

**Həkim:** Qapalı kəllə-beyin zədəsi diaqnozu qoyulub. İndi vəziyyəti orta ağırdır. Nisbətən yaxşılaşıb.

**Yaralı:** Cənab Prezident, Siz bizim arxa-dayağımızsınız. İnşallah, sağalıb kəndimizə qayıdarıq.

**Prezident İlham Əliyev:** İnşallah, tezliklə sağalıb normal həyata dönəcəksən. Mən indi sənin qonşularınla görüşmüşəm. Ağdamlılar hamısı bir nəfər kimi möhkəm dayanıblar, möhkəmdirlər.

**Yaralı:** Sağ olun, cənab Prezident.

**Prezident İlham Əliyev:** Siz də Çəmənli kəndindənsiniz?

**Yaralı:** Bəli.

**Vidadi İsayev:** Aprelin 27-dən 28-nə keçən gecə gətiriliblər. Gələndə birinin vəziyyəti çox ağır, ikisinin vəziyyəti isə orta ağır idi. Əməliyyat olundular, indi gündəlik müalicə alırlar.

**Prezident İlham Əliyev:** Gecə oldu, evdə oturmuşdunuz?

**Yaralı:** Həyətə çıxmışdıq. Güclü atəş açdılar. Mərmi təxminən 20-30 metrlikdə yerə düşdü, qəlpə dəydi. Cənab Prezident, Sizə uzun ömür, cansağlığı arzulayırıq. Allah Sizi qorusun. Gün o gün olsun ki, doğma torpaqlarımızda bayrağımız dalğalansın. Biz həkimlərimizə də uzun ömür, cansağlığı arzulayırıq. Allah onların da köməyi olsun.

**Prezident İlham Əliyev:** Həkimlər sizə yaxşı baxırlar. Gözəl şərait yaradılıb. Bərdə Müalicə-Diaqnostika Mərkəzi 2008-ci ildə istifadəyə verilib. Ölkədə ilk tikilən diaqnostika mərkəzlərindən biridir. Burada şərait yaxşıdır. Həkimlər də sizə yaxşı baxırlar. Tezliklə sağalacaqsınız, evlərinizə qayıdacaqsınız.

**Yaralı:** İnşallah. Sağ olun. Allah Sizi, bütün əsgərlərimizi qorusun.

**Prezident İlham Əliyev:** Sağ olun. Allah şəfa versin.

Prezident İlham Əliyev Bərdə Müalicə-Diaqnostika Mərkəzinin kollektivinə yaralılara yüksək səviyyədə xidmət göstərilməsi ilə bağlı tapşırıq və tövsiyələrini verdi.

**AZƏRTAC**

# Ağdam rayonunun təmas xəttində yerləşən Mahrızlı kəndinin sakinləri ilə görüş

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 1-də cəbhə bölgəsinə səfər çərçivəsində Ağdam rayonunun təmas xəttində yerləşən Mahrızlı kəndinə gəldilər.***



Dövlətimizin başçısı və xanımı Ermənistan ordusunun vəhşilikləri nəticəsində kənddə yaranmış vəziyyətlə tanış oldular, sakinlərlə görüşdülər.

**Prezident İlham Əliyev dedi:**

- Sizi ürəkdən salamlayıram. Sizə öz hörmətimi, məhəbbətimi ifadə edirəm. Siz burada düşmənlə üz-üzə olan kənddə yaşayırsınız, yaradırsınız, qurursunuz. Azərbaycan xalqı sizinlə fəxr edir.

**Mahrızlı sakini Allahverdi Məmmədov:** Cənab Prezident, Siz təyyarənin pilləkənindən düşəndə, fəxri qarovulun qarşısından keçəndə, ingilis dilində çıxış edəndə mən fəxr edirəm.

**Prezident İlham Əliyev:** Mən gəlmişəm ki, bu ağır günlərdə sizinlə bərabər olum, sizə öz dəstəyimi, hörmətimi, məhəbbətimi ifadə edim. Bilirsiniz ki, aprel ayının əvvəlində Ermənistanın silahlı təxribatı nəticəsində bizim mövqelərimizə hücum çəkildi, biz şəhid verdik, o cümlədən mülki əhali arasında həlak olanlar olmuşdur. Ermənistan görəndə ki, təmas xəttində, döyüşdə məğlub olur, bax, bu çirkin əməllərə əl atır. Yenə də mülki əhalini hədəfə götürür, necə ki 1990-cı illərin əvvəllərində. O vaxt da mülki əhali ilə müharibə aparırdı. Əliyalın əhali ilə müharibə aparmaq böyük hərbi cinayətdir. Ancaq Azərbaycan Ordusu onlara layiqli cavab verdi, yerinə oturtdu. Təmas xəttində tam üstünlük əldə etmişik. Bu gün hərbi hissədə olarkən hərbçilər mənə bir daha məruzə etdilər. Gedən döyüşlərlə, indiki vəziyyətlə bağlı, əlbəttə ki, məlumatım var. Qəhrəman Azərbaycan Ordusu bir daha öz gücünü göstərdi. Mən dəfələrlə demişəm, bu gün də demək istəyirəm ki, Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır, Vətəni ləyaqətlə qoruyur, düşmənə layiqli cavab verir. Əgər bir daha bizə qarşı təxribat, o cümlədən silahlı təxribat törədilərsə, yenə də Azərbaycan Ordusu öz sözünü deyəcək.

Dağılmış bu evlər erməni faşizminin təzahürüdür. Görün, bu evləri nə günə qoyublar. Orada yaşayanlar, onlar necə olacaqlar? Onlara, əlbəttə ki, Azərbaycan dövləti öz dəstəyini göstərəcəkdir. İndi komissiya işləyir, aktlaşma gedir. Bütün dəymiş ziyan qeydə alınır və Azərbaycan dövləti bu evlərin bərpası, tamamilə dağılmış evlərin tikintisi üçün vəsait ayıracaq. Mən onu təşkil edəcəyəm, siz narahat olmayın, bütün dəymiş ziyana kompensasiya veriləcək və dağılmış evlər bərpa olunacaq, yenidən tikiləcək.

Tərtər və Ağdam rayonlarında 500-dən çox evə ziyan dəyib, 100-dən çox ev tamamilə dağıdılıb. Budur, erməni faşizminin eybəcər sifəti. Azərbaycan Ordusu heç vaxt mülki əhaliyə qarşı müharibə aparmamışdır, aparmır və aparmayacaq. Ancaq Ermənistan, görün hansı çirkin işlərlə məşğuldur.

Bu yaxınlarda buraya bir qrup xarici jurnalist ezam olunmuşdur. Onlar bütün bu dağıntıları gördülər, çəkdilər, lentə aldılar. Bu, sənəddir və bu sənəd əsasında biz hüquqi müstəvidə öz addımlarımızı atacağıq. Azərbaycan Ordusu Azərbaycanı, Azərbaycan vətəndaşlarını qoruyur. Siz, düşmənlə üz-üzə yerləşən kəndlərdə yaşayan insanlar böyük cəsarət nümayiş etdirirsiniz. Sizin yaşamağınız, fəaliyyətiniz, öz torpağınıza bağlılığınız hər bir vətəndaş üçün bir nümunə olmalıdır. Düşməndən qorxmadan burada öz torpağınızda yaşayın. Biz öz torpağımızda yaşayırıq. Bizim başqa ölkələrin torpağında gözümüz yoxdur, heç vaxt torpaq iddiasında olmamışıq. Ancaq imkan verə bilmərik ki, bizim torpaqlarımız işğal altında qalsın.

Əminəm ki, işğala son qoyulacaq, Ağdam rayonu da, digər rayonlar da tamamilə azad olunacaq. Çünki bu gün Azərbaycan həm siyasi, həm iqtisadi, həm də hərbi sahələrdə tam üstünlük əldə edib. Aprelin əvvəlində Ermənistan tərəfindən bizə qarşı törədilən silahlı təxribatın qarşısını alan Azərbaycan Ordusu bir daha gücünü göstərdi. Düşmən layiqli cavabını aldı və əminəm ki, bundan sonra özü üçün lazımi nəticələr çıxaracaq.

Biz indi güclü mövqedəyik. Bizim işimiz haqq işidir. Beynəlxalq hüququn bütün norma və prinsipləri bizim mövqeyimizi dəstəkləyir. Artıq bütün dünya bilir ki, bizim torpaqlarımız işğal altındadır. Əgər müstəqilliyimizin ilk illərində erməni lobbisi və satılmış ermənipərəst dünya siyasətçiləri tərəfindən münaqişə ilə bağlı təhrif olunmuş fikir var idisə, bu, artıq yoxdur. Artıq hamı bilir, sənədlər var, sübutlar var. Biz siyasi və diplomatik sahələrdə böyük iş aparmışıq, beynəlxalq təşkilatları, dünya ictimaiyyətini məlumatlandırmışıq. İndi hamı bilir ki, Azərbaycan torpaqları işğal edilib. Artıq bu məsələ ilə məşğul olan vasitəçilər də deyirlər ki, bu vəziyyət dözülməzdir. Biz bunu iyirmi ildən çoxdur ki, deyirik. Vəziyyət dəyişib. Təmas xətti artıq əvvəlki təmas xətti deyil. Bunu hamı bilir.

Ərazi bütövlüyü hər bir ölkə üçün əsas prinsipdir. Bizim ərazi bütövlüyümüz toxunulmazdır, bərpa olunmalıdır, bərpa ediləcəkdir. Yaxşı olardı ki, bu, danışıqlar yolu ilə olsun. Biz buna çalışırıq. Hesab edirəm ki, danışıqlar masasında bizim mövqeyimiz indi daha da möhkəmdir. Bu gözəl vəziyyəti yaradan şanlı ordumuza eşq olsun! Ordumuzun sizin kimi əsgərləri var, öz yerindən tərpənmirlər. Baxmayaraq ki, başınızın üstündən mərmilər uçur, evlər dağılır, insanlar həlak olur, yaralanır, siz burada durmusunuz, möhkəm də duracaqsınız.

**Kənd sakini Südeyif Məhərrəmov** göstərdiyi diqqət və qayğıya görə dövlətimizin başçısına sakinlərin minnətdarlığını çatdıraraq dedi: Möhtərəm cənab Prezident, Ali Baş Komandan. Ağdam əhalisi adından, təmas xəttində yaşayan bütün insanlar adından bizimlə görüşə gəldiyiniz üçün Sizə dərin təşəkkürümüzü bildiririk.

Aprel ayının əvvəllərində erməni militaristlərinin, mənfur ermənilərin Azərbaycan xalqına qarşı törətdiyi təxribatın qarşısını Azərbaycan Ordusu layiqincə aldı. Biz bunu dəstəkləyirik, bu yerdə bərk dayanmışıq. Bizə arxayın ola bilərsiniz, möhtərəm cənab Prezident, Ali Baş Komandan. Sizin bütün xarici və daxili siyasətinizi bəyənirik, öz yerimizdəyik, heç bir yerə də getməyəcəyik. Biz Sizinlə, ordumuzla fəxr edirik.

**Sakin Sevil Qarayeva:** Hörmətli Prezident, arzu edirəm Ağdam alınsın, Siz gələsiniz və Sizin gəlişinizə çoxlu qurbanlar kəsək. Başınız Murov dağı kimi uca olsun.

**Prezident İlham Əliyev:** Sağ olun.

**AZƏRTAC**

# Silahlı Qüvvələrin Hərbi Akademiyası ilə ADA Universiteti və Azərbaycan Milli Elmlər Akademiyası arasında saziş imzalanıb



Aprelin 29-da Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyası ilə ADA Universiteti arasında elm və tədris sahələrində qarşılıqlı əməkdaşlıq haqqında saziş imzalanıb.

Sazişi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının rəisi general-leytenant Heydər Piriyev və ADA Universitetinin rektoru Hafiz Paşayev imzalayıblar.

Sazişdə tərəflər arasında elmi tədqiqatlar və tədris sahələrində əməkdaşlığın aparılması, o cümlədən birgə layihə və proqramların həyata keçirilməsi, kadrların elmi-pedaqoji səviyyəsinin yüksəldilməsi, hər iki təhsil müəssisəsinin maddi-texniki bazasından qarşılıqlı istifadə edilməsi, eləcə də təhlükəsizlik mühitində mövcud təhdid və təhlükələrin qiymətləndirilməsi və onların dəf edilməsi üzrə müştərək fəaliyyət göstərilməsi nəzərdə tutulur.

* * *

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyası ilə Azərbaycan Milli Elmlər Akademiyası arasında elmi-texniki və təhsil sahələrində əməkdaşlığa dair memorandum imzalanıb.

Memorandumu Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının rəisi general-leytenant Heydər Piriyev və Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik Akif Əlizadə imzalayıblar.



Tərəflər ölkə Prezidentinin müvafiq sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na əsaslanaraq, hərb elminin inkişaf etdirilməsi, müvafiq peşə və ixtisaslar üzrə optimal təhsil sisteminin mərhələli tənzimlənməsi üzrə hüquqi bazanın yaradılması barədə razılığa gəliblər.

Memorandumda Azərbaycan Respublikasının müdafiə qüdrətinin artırılması və onun müasir təhdid və təhlükələrə cavab verə biləcək hərbi potensiala malik olması istiqamətində birgə elmi-tədqiqat işlərinin aparılması, hərbi təhsil sistemində qabaqcıl elmi nailiyyətlərin tətbiq edilməsi, birgə beynəlxalq və regional elmi konfransların keçirilməsi, eləcə də müdafiə texnologiyaları sahəsində müştərək fəaliyyət göstərilməsi nəzərdə tutulur.

İmzalanma mərasimindən sonra qonaqlara Azərbaycan Milli Elmlər Akademiyasında əldə edilmiş ən son elmi nailiyyətlər barədə ətraflı məlumat verilib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə nazirinin tapşırıqları hərbi həkimlərə çatdırılıb



***Azərbaycan Tibb Universitetinin hərbi tibb fakültəsində Müdafiə Nazirliyinin Tibb Baş İdarəsinin zabitləri, Silahlı Qüvvələrin baş tibb mütəxəssisləri və tibb müəssisələrinin rəhbərləri ilə görüş keçirilib.***

Müharibə şəraitində yaşadığımız zamanda hərbi həkim kadrlarının hazırlanmasının vacibliyini vurğulayan Tibb Baş İdarəsinin rəisi general-mayor Natiq Əliyev qarşıda duran vəzifələrdən danışıb və şəxsi heyətin diqqətinə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırıqlarını çatdırıb.

Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli də öz növbəsində fakültənin maddi-texniki bazasından və tədris otaqlarında yaradılan şəraitdən razılığını bildirib. Müəllim və kursant heyəti ilə görüşdən məmnunluğunu ifadə edən rektor pedaqoji kollektivin bundan sonra da həm xidmətdə, həm də kadrların hazırlanmasında böyük uğurlar qazanacağına ümidvar olduğunu bildirib.



Hərbi tibb fakültəsinin rəisi, tibb xidməti polkovniki Fəxrəddin Ağayev isə vurğulayıb ki, fakültənin müəllim və mütəxəssisləri bundan sonra da üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gələrək hərbi səhiyyəmiz üçün yüksək səviyyəli kadrlar hazırlayacaqlar.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti, fotolar çavuş Namiq PƏNAHOVUNDUR**

# Azərbaycan və Sloveniya Silahlı Qüvvələri arasında "Mühazirəçi mübadiləsi" tədbiri keçirilir

***Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Sloveniya Respublikası Müdafiə Nazirliyi arasında 2016-cı il üçün ikitərəfli əməkdaşlıq planına uyğun olaraq Sloveniyada "Mühazirəçi mübadiləsi" tədbiri keçirilir.***

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirin məqsədi ölkəmizin tanıdılması, regionda təhlükəsizlik vəziyyəti və həqiqətlərimiz barədə geniş auditoriyaya məlumatın çatdırılması, o cümlədən Silahlı Qüvvələrimiz arasında dostluq əlaqələrinin möhkəmləndirilməsidir.

Mayın 3-də Müdafiə Nazirliyinin Beynəlxlaq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi general-mayor Hüseyn Mahmudov Sloveniya Silahlı Qüvvələrinin Hərbi Məktəblər Mərkəzində "Cənubi Qafqazın təhlükəsizliyi üzrə təhdidlərə Azərbaycanın baxışı" mövzusunda mühazirə ilə çıxış edib, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və onun nəticələri barədə geniş məlumat verib.

Tədbirdə Sloveniya Hərbi Akademiyasının dinləyiciləri, Hərbi Elmi Mərkəzinin bir sıra mühazirəçiləri, hərbi təhsil müəssisələrinin rəhbər heyəti, o cümlədən Müdafiə Nazirliyi və Baş Qərargahın nümayəndələri iştirak ediblər.

# "Müdafiə Təhsilinin Genişləndirilməsi Proqramı" çərçivəsində işçi görüşləri keçirilib

***Azərbaycan Respublikası Müdafiə nazirinin müvafiq əmrinə əsasən, Silahlı Qüvvələrin Hərbi Akademiyasının nümayəndə heyəti Bolqarıstan və Çexiyada səfərdə olub.***

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, səfər çərçivəsində nümayəndə heyətinin üzvləri Çexiyanın Brno şəhərindəki Müdafiə Universiteti və Bolqarıstanın Sofiya şəhərində yerləşən G.Rakovski adına Hərbi Akademiyada keçirilən işçi görüşlərində iştirak ediblər.




Tədbirlərdə NATO-nun "Müdafiə Təhsilinin Genişləndirilməsi Proqramı" (DEEP) çərçivəsində "Bolonya təhsil sistemi və Fəlsəfə Doktoru proqramının tətbiq edilməsi təşəbbüsünə dəstək" mövzularında brifinqlər təqdim olunub.

Görüşlər zamanı hərbi təhsil sisteminin inkişafı və elmi-pedaqoji kadr hazırlığı üzrə təcrübə mübadiləsinin aparılması, eləcə də hərbi təhsilin perspektivləri üzrə qarşılıqlı əməkdaşlıq məsələləri müzakirə olunub.

# Silahlı Qüvvələrə Yardım Fonduna daxil olan vəsait

Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 17 avqust tarixli, 755 nömrəli Fərmanı ilə təsdiq edilmiş Silahlı Qüvvələrə Yardım Fonduna 1 may 2016-cı il tarixədək 73.095.369,76 AZN, 212.373,88 ABŞ dolları, 2993,69 avro və 5000,0 rubl vəsait daxil olub.

# "Azərbaycan Ordusunun hazırlığı ən yüksək səviyyədədir"

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin cəbhəboyu zonanın ön xəttinə səfər edərək sakinlərlə, hərbi qulluqçularla görüşü bir daha sübut etdi ki, dövlətimizin başçısı həmişə olduğu kimi, ən çətin məqamda da ön xəttə xidmət edən əsgər və zabitlərin, təmas xəttinə yaxın ərazilərdə yaşayan əhalinin yanındadır.

Bu sözləri Prezident, Ali Baş Komandan İlham Əliyevin və xanımı Mehriban Əliyevanın mayın 1-də Ermənistan silahlı qüvvələri ilə təmas xəttində yerləşən Tərtər, Bərdə və Ağdam rayonlarına səfəri zamanı yerli əhali və hərbi qulluqçularla görüşünün əhəmiyyəti barədə AZƏRTAC-a açıqlamasında sabiq hərbi birlik komandiri, ehtiyatda olan general-leytenant Yaşar Aydəmirov deyib.

General-leytenant Y.Aydəmirov bildirib ki, Ali Baş Komandan səfər çərçivəsində ön xətdəki real vəziyyəti, qoşunların döyüş hazırlığının səviyyəsini yoxladı, mühüm tapşırıqlarını verdi. Bu səfər Azərbaycan Prezidentinin bütün məsələləri daim şəxsi nəzarətində saxladığını, bilavasitə yerlərə səfər edərək vəziyyəti ətraflı qiymətləndirdiyini və lazımi qərarlar qəbul edərək vacib tapşırıqlar verdiyini bir daha göstərdi. Həmçinin onu sübut etdi ki, Azərbaycan Ordusunun hazırlığı ən yüksək səviyyədədir və Silahlı Qüvvələrimiz torpaqlarımızın işğaldan azad olunması uğrunda Ali Baş Komandanın döyüş əmrinə hər an hazırdır.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***3 may 2016-cı il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 116 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Paravakar, Berkaber kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Qızılhacılı kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Mosesqex, Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Əlibəyli, Ağbulaq kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun Çiləbürt, Ağdam rayonunun Şıxlar, Baş Qərvənd, Kəngərli, Novruzlu, Mərzili, Qaraqaşlı, Yusifcanlı, Sarıcalı, Nəmirli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz, Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitinə uyğun olaraq, düşmənin mövqeləri və səngərlərinə 118 dəfə atəş zərbəsi endirib.

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

**Mövzu:** Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyev.

Suallar:

1. Heydər Əlirza oğlu Əliyevin həyat və fəaliyyəti.
2. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev.

### *Heydər Əlirza oğlu Əliyevin həyat və fəaliyyəti*

Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da Azərbaycanın Naxçıvan şəhərində anadan olmuşdur. O, 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) memarlıq fakültəsində təhsil almışdır. Başlanan müharibə ona təhsilini başa çatdırmağa imkan verməmişdir.

1941-ci ildən Heydər Əliyev Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında və Naxçıvan MSSR Xalq Komissarları Sovetində şöbə müdiri vəzifəsində işləmiş və 1944-cü ildə dövlət təhlükəsizliyi orqanlarında işə göndərilmişdir. Bu dövrdən təhlükəsizlik orqanları sistemində çalışan Heydər Əliyev 1957-ci ildə isə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmiş, 1965-ci ildən Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, 1967-ci ildən isə sədri vəzifəsində işləmiş, general-mayor rütbəsinə qədər yüksəlmişdir. Həmin illərdə o, Leninqradda (indiki Sankt-Peterburq) xüsusi ali təhsil almışdır.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyul plenumunda Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilərək respublikanın rəhbəri olmuşdur. Qısa müddətdə iqtisadiyyat sahəsində nailiyyətlər əldə olundu, mədəniyyətin yüksəlişi və milli-mənəvi dəyərlərin dirçəlişi istiqamətində mühüm addımlar atıldı. O illərdə Heydər Əliyevin idarəetmə fəlsəfəsinin başlıca ideya istiqamətini milli özünüdərkin güclənməsinə imkan verən sürətli inkişaf strategiyası təşkil etmişdir.

Həmin illər həyatımızın bütün sahələrində baş vermiş köklü dəyişikliklər öz miqyasına görə Azərbaycanın quruculuq salnaməsində ən dolğun səhifələri təşkil edir. Respublikamızın nüfuzu sürətlə artır, milli kadrların hazırlanması, seçilib yerləşdirilməsi insanların gələcəyə olan inamını yüksəldir. Azərbaycançılıq ideologiyasının inkişafını prioritet vəzifə kimi qarşıya qoyan ulu öndər Kommunust Partiyasının sərt rejimi dövründə Azərbaycan dilinə həqiqi dövlət dili statusu qazandırmağa nail olmuş, sözün əsl mənasında, qəhrəmanlığa bərabər addım ataraq 1978-ci il Konstitusiyasında Azərbaycan dilini dövlət dili statusunda təsdiq etdirmişdir. Ölkəmizin müstəqilliyinin və dünya iqtisadiyyatına dərin inteqrasiyası proseslərinin hazırkı möhkəm təməli məhz dahi şəxsiyyət Heydər Əliyev tərəfindən qoyulub.

1982-ci ilin dekabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilərək SSRİ-nin rəhbərlərindən biri olmuşdur. O, 20 il ərzində SSRİ Ali Sovetinin deputatı, beş il isə SSRİ Ali Soveti sədrinin müavini olmuşdur.

Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən baş katib Mixail Qorbaçovun siyasi xəttinə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa vermişdir.

Heydər Əliyev 1990-cı ilin 20 yanvarında Sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb etmişdir. O, Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etmişdir.

1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşamış, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. O, 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olmuşdur. Heydər Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. O, 1998-ci il oktyabrın 11-də xalqın yüksək fəallığı şəraitində keçirilən seçkilərdə səslərin 76.1 faizini toplayaraq, yenidən Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

Heydər Əliyev bir sıra beynəlxalq mükafatlara, müxtəlif ölkələrin universitetlərinin fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. O, beş dəfə Lenin ordeni, Qırmızı Ulduz ordeni və çoxlu medallarla təltif edilmiş, iki dəfə Sosialist Əməyi Qəhrəmanı adını almış, bir çox xarici dövlətlərin orden və medalları ilə təltif olunmuşdur.

Azərbaycanın son 30 ildən artıq bir dövrünü əhatə edən tarixi taleyi Heydər Əliyevin adı ilə qırılmaz tellərlə bağlıdır. O, rəhbərlik etdiyi bu dövr ərzində daim tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti, böyük tarixi keçmişi ilə həmişə qürur duyduğu və gələcək nəsillərinin taleyi üçün düşündüyü doğma yurdu Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxarmışdır.

Azərbaycan xalqı milli dövlətçiliyinin dağılmaq təhlükəsi qarşısında qaldığı bir zamanda - 1993-cü ilin iyununda mövcud hakimiyyətin dəyişilməsini təkidlə tələb etmiş və həmin vaxtdan taleyini yenə Heydər Əliyevə etibar etmişdir. Xalqının belə dar bir gündə qaldığını görüb onun təkidli dəvətini qəbul edən Heydər Əliyev Azərbaycanda yenidən böyük siyasətə qayıtmışdı. Xalq Heydər Əliyevin bu qayıdışını ümid və sevinclə qarşılamış, həmin günü isə Milli Qurtuluş Günü kimi müstəqil Azərbaycanın tarixinə yazmışdır.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyev iki dəfə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. 2003-cü ildə dekabrın 12-də vəfat etmişdir.

Azərbaycan xalqı dövlət və milli bayramlarda, eləcə də ümummilli liderimizin ildönümü günlərində onun məzarını ziyarət edərək ona öz ehtiramını bildirir.

### *Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev*

Ümummilli liderin respublikamıza rəhbərliyi dövrü Azərbaycan tarixinin ən yüksək inkişaf mərhələsi olmuşdur. Bu gün ölkəmizdə davam edən geniş quruculuq, abadlıq və yenidənqurma işləri qüdrətli şəxsiyyət Heydər Əliyev zəkasının bəhrəsidir. Müstəqil dövlətimizin tarixinə qurucu və xilaskar kimi daxil olmuş ümummilli liderimizin xalqımızın taleyində, mənəvi, siyasi və ictimai həyatında misilsiz xidmətləri olmuşdur.

SSRİ-nin süqutundan sonra dövlət müstəqilliyi qazanmış Azərbaycanda anarxiya, xaos və özbaşınalıq baş alıb gedirdi. Dağlıq Qarabağda yaradılan münaqişə də Azərbaycan xalqını növbəti bir sınaqla üz-üzə qoymuşdu. Az keçmədi ki, bu problemlərin sırasına daha biri əlavə olundu: hakimiyyət böhranı. Müstəqillik yolunda ilk addımlarını atan gənc respublikada hakimiyyətə yiyələnmək üçün ayrı-ayrı şəxslər və qruplar arasında qızğın mübarizə gedirdi. Məntiqsiz, bir-birini təkzib edən fərmanlar, özbaşınalıqlar hakimiyyətdə olanların ölkəni idarə edə bilməyəcəyindən xəbər verirdi. Vəziyyət getdikcə daha da kəskin xarakter alırdı.

Ermənistanla sərhəd bölgələrdə vəziyyət getdikcə ağırlaşırdı. Könüllü qruplaşmalar adlanan silahlı dəstələr mərkəzi hakimiyyətə tabe olmur, özlərini sərbəst aparır, düşmənlə vuruşmaq, torpaqlarımızı qorumaq əvəzinə, şəxsi maraqlarının girovuna çevrilirdi. Yenicə müstəqillik qazanmış Azərbaycan məhv olmaq həddinə çatmışdı.

Belə çətin bir məqamda xalqın son ümid və pənah yeri dövlət idarəçiliyində böyük təcrübəsi olan Heydər Əliyev idi. Ona görə də Vətənin bu ağır günündə xalq Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət etdi. Ulu öndər Heydər Əliyev xalqın və respublikanın o zamankı hakimiyyət rəhbərliyinin təkidli xahişini qəbul edib, iyunun 9-da Bakıya gəldi. Bu gəliş Azərbaycanda vətəndaş müharibəsinin, müstəqil dövlətimizin parçalanmasının qarşısını aldı. Məhz ümummilli lider Heydər Əliyev müasir Azərbaycan dövlətinin varlığını qorudu, onu xilas etdi və yeni Azərbaycanın əsasını qoydu.

Xalqın xilaskarına çevrilən Heydər Əliyev Azərbaycan qarşısında tarixi bir missiyaya imza atdı. Heydər Əliyevin siyasi təcrübəsi, uzaqgörənliyi və sarsılmaz iradəsi ölkəni vətəndaş müharibəsi təhlükəsindən və ictimai-siyasi pərakəndəlikdən qurtarmış, qanunçuluğu bərpa etmiş və cəmiyyəti vahid məfkurə ətrafında birləşdirmişdir.

1994-cü ildə Heydər Əliyevin neft strategiyasının reallaşdırılmasını təmin edən "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycan xalqının öz maddi sərvətlərinin, o cümlədən neftinin həqiqi sahibi kimi çıxış etməsinə zəmin yaratmışdı. Bu müqavilə ölkəmizin tarixində yeni dövr açmış, dinamik inkişafın təməlini təşkil edərək müstəqilliyimizin iqtisadi bünövrəsinin möhkəmlənməsi və Azərbaycanın bu gün dünyada analoqu olmayan templə davamlı inkişafını təmin etmişdir. Hazırda Heydər Əliyevin adını daşıyan Bakı-Tbilisi-Ceyhan neft kəməri xalqımızın ümummilli liderinin ideyalarının gerçəkləşməsinin parlaq təcəssümüdür.

Ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycanın möhkəmlənməsində və inkişafındakı xidmətlərini saymaqla qurtaran deyil. Müstəqil Azərbaycanın Konstitusiyasının onun rəhbərliyi altında hazırlanaraq 1995-ci ilin noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilməsi ölkəmizin tarixində böyük siyasi hadisə kimi qiymətləndirilir. Müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkənin gələcək inkişaf istiqamətlərini müəyyənləşdirməklə bərabər, insan hüquq və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön plana çıxarmışdır.

Ulu öndərin yorulmaz fəaliyyəti və Azərbaycanın demokratik proseslərin inkişafına xüsusi önəm verməsinin nəticəsi olaraq müstəqil dövlətimiz insan hüquq və azadlıqlarının, demokratik təsisatların təminatı ilə bağlı mühüm beynəlxalq konvensiyalara, sazişlərə qoşulmuşdur. 2001-ci il yanvarın 25-də müstəqil respublikamız Avropa Şurası kimi mötəbər beynəlxalq təşkilata tamhüquqlu üzv qəbul edilməklə demokratiya yolunda inamla irəlilədiyini bir daha sübut etdi. Onu da qeyd edək ki, bu mötəbər beynəlxalq təşkilatla səmərəli əməkdaşlıq Azərbaycanın milli qanunvericiliyinin Avropa standartlarına uyğunlaşdırılmasına ciddi təkan vermişdir.

Tarixin amansız və sərt sınaqları dövründə dünyanın ayrı-ayrı ölkələrinə səpələnərək yaşamaq məcburiyyətində qalmış azərbaycanlıların birlik və həmrəyliyinin əldə edilməsi işində müstəsna xidmətlər göstərən Heydər Əliyevin dünya azərbaycanlılarının təşkilatlanması və onların bir Vətən - müstəqil Azərbaycan ətrafında sıx birləşməsi üçün əzmlə səy göstərərək bu istiqamətdə son dərəcə qiymətli qərarlar qəbul etmişdir. Dünya azərbaycanlılarının ölkəmizin milli mənafeləri ətrafında bir araya gətirilməsi, azərbaycançılıq ideologiyasının milli birliyin ən aparıcı amilinə çevrilməsi Heydər Əliyevin xalqımıza verdiyi minlərlə töhfələrindən biridir.

Azərbaycan ziyalısını son əsrlərdə ciddi düşündürən milli dirçəliş problemləri bütöv şəkildə Heydər Əliyevin fəaliyyəti sayəsində strateji dövlət siyasətinə, əməli siyasi müstəviyə keçmiş və nəticədə azərbaycançılıq məfkurəsi şüurlara hakim kəsilmişdir. Ulu öndər qürur hissi ilə deyirdi: "Mən həmişə fəxr etmişəm, indi də fəxr edirəm ki, mən azərbaycanlıyam..." Öz titanik fəaliyyəti ilə Azərbaycan tarixinin ən şərəfli səhifələrini yazan, müstəqil Azərbaycanımızın memarı və qurucusu olan Heydər Əliyevin azərbaycanlı olmasından necə böyük qürur duyduğu bir daha özünü təsdiqlədi.

Qüdrətli şəxsiyyətin siyasi varisi Azərbaycan Prezidenti İlham Əliyevin apardığı məntiqli siyasət ölkəmizi bütün sahələrdə tərəqqiyə aparır. Yüksək təfəkkür, zəngin dövlətçilik və idarəçilik təcrübəsi qazanmış, müasir düşüncəli, praqmatik lider İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan inamla irəliləyir. Zəngin dövlətçilik məktəbindən dərs alan, dünya miqyasında təcrübəli diplomat kimi tanınan Azərbaycan Prezidenti İlham Əliyevin düşünülmüş siyasəti nəticəsində Azərbaycan dünyanı bürüyən maliyyə böhranı zamanı da ən az zərər çəkən ölkə olmuşdur. Sevindirici haldır ki, ümummilli liderimizin siyasi xətti bu gün Prezident İlham Əliyev tərəfindən qloballaşan dünyanın tələbinə uyğun olaraq yeni məzmun və keyfiyyətdə uğurla davam etdirilir.

Möhtərəm Prezidentimiz İlham Əliyev varislik haqqını hərtərəfli qazanmışdır. Ona görə Azərbaycan cəmiyyəti sabahkı günə işıqlı bir ümidlə baxır və şübhə etmir ki, bu gün Heydər Əliyev ailəsi kimi möhtəşəm bir nəslin varisi olan, siyasi və ideoloji varislik haqqı qazanan ölkə başçısı İlham Əliyev müstəqil dövlətçiliyimizin zəminində yaranmış bugünkü ənənələrimizi uğurla davam və inkişaf etdirəcəkdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev öz gündəlik fəaliyyəti ilə Heydər Əliyev siyasi kursunun və ənənələrinin davam etdirilməsinə yönəlmiş məqsədyönlü bir siyasətin davamçısı olduğunu bütün dünyaya sübut etmiş oldu. Bu günləri ulu öndər Heydər Əliyevin siyasi kursu Azərbaycanın problemlərini həll etməyə qadir olan güclü bir siyasi hakimiyyət komandasının əlində olmasını aprelin 2-dən 5-nə qədər düşmənin təxribat qruplarının qarşısının alınması zamanı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev cənablarının qətiyyətli hərəkət edərək düşmənə lazımi cavabın verilməsi üçün əks hücuma keçməsi haqqında əmr verməsində bir daha özünü əyani göstərdi.

**Müdafiə Nazirliyi
Mənəvi-Psixoloji
Hazırlıq və İctimaiyyətlə
Əlaqələr İdarəsi**

*Faşizm üzərində qələbədən 71 il keçir*

# "Azərbaycan Böyük Vətən müharibəsi İllərində"

**Faşizm üzərində qələbənin 71-ci ildönümü münasibəti ilə Azərbaycan Hərb Tarixi Muzeyində "Azərbaycan Böyük Vətən müharibəsində" mövzusunda tədbir keçirildi. Tədbiri giriş sözü ilə muzeyin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə açdı.**



Ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş oğul və qızlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Ehtiyatda olan polkovnik Əzizağa Qənizadə çıxışında bəşəriyyət tarixində ən dəhşətli müharibə olan İkinci Dünya müharibəsindən danışaraq bildirdi ki, Hitlerin işğal planına görə, SSRİ üzərində tam qələbədən sonra türk xalqları yaşayan ərazilərdən ibarət "Böyük Türküstan" dövləti yaradılmalı idi. "Bu dövlətin ərazisinə Şimali və Cənubi Azərbaycan, Başqırdıstan, Tatarıstan, Krım, Şimali Qafqaz, Qərbi Çin və Əfqanıstanın daxil olması nəzərdə tutulurdu. Hitler Bakını faşist Almaniyasını yanacaqla təmin edən mərkəzə çevirmək niyyətində idi."

- Bakı neftçiləri böyük əzmkarlıq göstərirdilər, - deyə natiq vurğuladı ki, 1941-ci ildə neftçilərimizin gərgin səyləri nəticəsində Azərbaycanın tarixində rekord həcmdə - 23.5 milyon ton neft hasil olundu ki, bu da ittifaqda çıxarılan neftin 71.4 faizini təşkil edirdi. "Bakı nefti Qızıl Ordunun ən etibarlı dayağı idi. Ölkədə istehsal edilən neftin 70-75 faizini, aviasiya benzini istehsalının 85-90 faizini Bakı verirdi. Ümumiyyətlə, müharibə illərində Bakı neftçiləri 75 milyon ton neft, 22 milyon ton benzin, 22 milyon ton sürtgü yağları, 6.5 milyard kubmetr qaz istehsal etmişlər. Görkəmli Sovet sərkərdələri G.G.Jukov, R.Y.Malinovski, F.İ.Tobuxin və başqaları Bakının Böyük Vətən müharibəsində mühüm rolunu dönə-dönə qeyd etmişlər. Marşal G.G.Jukova görə, Bakı neftçiləri cəbhəyə Vətənimizin müdafiəsi üçün nə qədər lazım idi, o qədər yanacaq vermişdilər."

Məruzəçi daha sonra Böyük Vətən müharibəsi illərində Azərbaycanda yaradılan 77-ci, 223-cü, 402-ci və 416-cı diviziyaların şərəfli döyüş yolundan danışdı. "Bu diviziyalardan başqa 227-ci və 271-ci diviziyalar da komplektləşdirildi ki, onların da şəxsi heyətinin 30 faizdən 70 faizə qədəri azərbaycanlı idi."

Tarixi qələbənin qazanılmasında Azərbaycan xalqının canlı qüvvə sarıdan köməyini qeyd edən məruzəçiyə görə, 1941-1945-ci illərdə cəbhəyə Azərbaycandan 600 mindən çox döyüşçü göndərilib. "Onlardan 300 minə qədəri qəhrəmanlıqla döyüş cəbhələrində həlak olub. Müharibədə göstərdikləri igidliklərinə və şücaətlərinə görə 130 nəfər həmyerlimiz Sovet İttifaqı Qəhrəmanı adı almış, 30 nəfər isə Şöhrət ordeninin hər üç dərəcəsi ilə təltif olunmuşdu. Döyüşlərdə iştirak edən həmyerlilərimizin 200 min nəfərdən çoxu orden və medallarla təltif edilmişdi."

"İkinci Dünya müharibəsi və Azərbaycan" adlı qısametrajlı film iştirakçılar tərəfindən maraqla qarşılandı.

Muzeyin əməkdaşlarından Sevər Həsənova və Şəlalə Hüseynova mövzu ətrafında çıxış etdilər.

İtaliya partizan hərəkatının iştirakçıları Məşi Elyazov, Xançoban Cəfərov, 416-cı Taqanroq dviziyasının veteranı Məhəmməd Hüseynov və başqaları tədbirdə çıxış edərək döyüş xatirələrini bölüşdülər.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Qələbə naminə

İkinci Dünya müharibəsi bəşər tarixində ən dəhşətli müharibələrdən biri olub. Bu müharibədə bir çox xalqlar kimi Azərbaycan xalqı da alman faşizminə qarşı mübarizəyə qalxıb. Azərbaycanın qəhrəman övladları faşistlərə qarşı döyüşərək fədakarlıqlar göstəriblər.

Müharibə dövründə Azərbaycan xalqı həm ön cəbhədə vuruşub, həm də qələbə naminə arxa cəbhədə gecə-gündüz yorulmadan çalışıb.

Respublikamız öz nefti ilə, demək olar ki, bütün ittifaqı təmin edirdi. Məhz bu neftə görə də Hitlerin ilk planı Qafqazı ələ keçirmək idi. Neftçilərimiz qələbə naminə var qüvvələrini səfərbər edərək cəbhəni neftlə təmin edirdilər.

Bu il faşizm üzərində qələbənin 71 illiyidir. Hər il olduğu kimi, bu il də veteranlarımız qələbənin ildönümünü təntənə ilə bayram edirlər. Bu qələbənin əldə edilməsində onlar faşizmə qarşı əsl mübarizə apardılar.

Ön cəbhədə faşistlərə qarşı döyüşənlər arasında müxtəlif peşə sahibləri var idi. Onlar əyinlərinə hərbi forma geyinərək Vətənin müdafiəsinə qaxmışdılar. Bu insanlar kimliyindən asılı olmayaraq keçmiş ittifaqın tərkibində igidliklə vuruşublar. Elə bir cəbhə olmayıb ki, bizim həmyerlilərimiz orada döyüşməsinlər. Yeri gəlmişkən, onlardan bir neçəsinin adını çəkmək istəyirəm ki, qoy gələcək nəsillər bu insanları tanısınlar.

Şərəfli döyüş yolu keçmiş ehtiyatda olan polkovnik Mehdi Abdulla oğlu Mahmudov Böyük Vətən müharibəsi dövründə artilleriya batareyasının komandiri olub. Mozdok, Stavropol, Melitopol, Odessa, Kişinyov şəhərləri uğrunda döyüşlərdə iştirak edib. Müxtəlif diviziyaların tərkibində düşmənin çoxlu sayda döyüş texnikasını və canlı qüvvəsini məhv edib. Berlin şəhərinin alınmasında göstərdiyi igidliyə görə Lenin ordeni ilə təltif olunub və müxtəlif mükafatlara layiq görülüb.

Tibb xidməti baş leytenantı Dürrə Əliabbas qızı Məmmədova 1923-cü ildə Şəki şəhərində anadan olub. O, müharibənin birinci ilində könüllü olaraq cəbhəyə yollanıb. Cəbhənin ən təhlükəli döyüş meydanında, od-alovun içərisində yaralılara tibbi yardım göstərib. 18-ci ordunun tərkibindən ağır döyüşlərdə nə qədər yaralının həyatını xilas edib. Müxtəlif orden və medallarla, döş nişanları ilə təltif olunub.




Məmməd Zeynalabdin oğlu Piriyev 1914-cü ildə Ağstafa rayonunda anadan olub. Müharibə başlananda könüllü müharibəyə yollanıb və öz hərbi xidmətini 99-cu atıcı diviziyanın tərkibində Qafqaz uğrunda döyüşlərdə başlayıb. Xarkov istiqamətində gedən döyüşlərdə ağır yaralanıb. Müalicə aldıqdan sonra Krasnodara - minaatanlar məktəbinə göndərilib. Buranı müvəffəqiyyətlə başa vuran Piriyev Leninqrad cəbhəsinə göndərilir. Sonra Pribaltika və Şərqi Avropanın azad edilməsi uğrunda döyüşlərdə iştirak edir. Cəsur artilleriyaçının əməyi yüksək mükafatlara layiq görülüb.

Böyük Vətən müharibəsi iştirakçısı A.Qritçenko həmyerlilərimizin döyüş xidmətləri barədə bir sıra kitablar yazıb. Onların döyüş və həyat yollarını öz kitablarında əks etdirib ki, gələcək nəsillər də belə oğullardan nümunə götürsünlər.

Faşistlərə qaşı mübarizədə Azərbaycanda doğulub boya-başa çatan digər millətlərin nümayəndələri də iştirak ediblər. Onlardan Aleksandr Nocov, Mixail Xarlamov, Semyon Levin və başqalarının adlarını da çəkmək istərdik.

Biz fəxr edirik ki, Azərbaycanın belə qəhrəman oğulları olub.

**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Türkiyə təyyarəsi Kosovoda enərkən qəzaya düşüb

Türk Hava Yollarına məxsus sərnişin təyyarəsi Kosovonun Pristine şəhərindəki Adem Jashari Hava Limanında enərkən hərəkət zolağından çıxıb.

Anadolu Agentliyinin məlumatına görə, qəzaya uğrayan təyyarənin göyərtəsində yüzdən artıq sərnişin olub. Heyət üzvləri və sərnişinlər arasında zərər çəkən olmayıb. Hava limanının bir neçə saat ərzində bağlandığı bildirilir.

### Ermənistanda korrupsiya sistemli hal alıb

Ermənistanda korrupsiya çox geniş yayılaraq sistemli hal alıb. Bunu "Transparency International" və digər hüquq müdafiə təşkilatları öz hesabatlarında qeyd ediblər.

"Transparency International" təşkilatının icraçı direktoru Varujan Oktanyan bildirib ki, 2003-2012-ci illərdə Ermənistanda korrupsiya cədvəl üzrə 0-dan 10 dərəcəyə qədər qalxaraq korrupsiya indeksi ilə 3 balla qiymətləndirilirdi. Amma 2012-ci ildən başlayaraq bu ölkədə korrupsiya daha genişlənərək cədvəl üzrə 0-dan 100-ə qalxıb. Bununla da Ermənistanın korrupsiya cədvəlindəki indeksi 35-ə qalxıb. Bu da Ermənistanda korrupsiyanın sistemli xarakter aldığını bir daha sübut edir.

### İordan çayının Qərb sahilində neft yatağı aşkar edilib

İsrailin "Hatrurim" təbii qaz və neft axtarış şirkəti İordan çayının Qərb sahilində, Ölü dəniz yaxınlığında 7-11 milyon barrel ehtiyatı olan neft yatağı aşkar edib.

Bu barədə "Hatrurim" şirkəti məlumat yayıb. Kəşf edilən neft yatağından 1.2 milyard şekel (318 milyon dollar) gəlir əldə ediləcəyi deyilib.

Qeyd edək ki, İsrailin enerji şirkəti "Delek Group" 1995-ci ildə həmin bölgədə neft axtarışına başlamış, lakin o vaxt xam neftin qiymətindəki ucuzlaşma və Aralıq dənizində kəşf edilən təbii qazla əlaqədar bölgədəki işlərini dayandırmışdı.

### Son 50 ildə ilk dəfə ABŞ-dan Kubaya səyahət gəmisi yola düşüb

Amerikanın səyahət gəmisi təxminən 50 ildən bəri ilk dəfə olaraq Florida ştatının Mayami şəhərindən Kubaya yola düşüb. "Carnival Corporation" kompaniyasına məxsus gəmi mayın 1-dən etibarən bir həftə ərzində Azadlıq adasının müxtəlif limanlarına səyahət edəcək.

Kompaniyanın Baş direktoru Arnold Donald Mayami şəhərində keçirilən mətbuat konfransında belə reysin iki həftədən bir təşkil olunacağını bildirib.

Xatırladaq ki, "Carnival Corporation" kompaniyası Mayamidən Kubaya ilk dəfə layner göndərmək barədə qərarını martın 22-də elan edib. Şirkət 2015-ci ildə ABŞ Maliyyə Nazirliyindən bu barədə müvafiq icazə alıb. Səyahət 704 sərnişin daşıya bilən "Adonia" gəmisi tərəfindən həyata keçiriləcək. Biletlərin qiyməti 2 min dollardan 7.5 min dollara qədərdir.

### Hidrogen yanacağı ilə işləyən ilk hibrid tramvay istehsal edilib

Çində hidrogen yanacağı ilə işləyən dünyanın ilk müasir kommersiya hibrid tramvayı istehsal olunub.

Yeni tramvay ətraf mühiti çirkləndirmir, səs-küyü azdır, bərpa olunan enerji mənbələrindən istifadə edir, eləcə də yüksək effektivliyə və digər müasir üstünlüklərə malikdir.

Tramvayda maksimum enerjitutumlu batareyadan istifadə edilir. Bundan başqa, nəqliyyat vasitəsinin döşəmə hissəsi bütünlüklə aşağıda yerləşdirilib ki, da sərnişinlərin rahatlığını təmin edir. Asanlıqla idarə olunan tramvayın salonunda yerlərin sayı müştərilərin sifarişinə görə dəyişə bilər.

**AZƏRTAC-ın materialları əsasında**

Redaksiyamızın qonağı

# Həyat mübariz insanlarındır

*Onunla söhbət etməyi çoxdan arzulayırdım. Səhnə yaraşığı ilə seçilən bu sənətçi xanımın ifalarını həmişə dərin maraqla dinləmişəm. Sənət yoldaşlarından təvazökarlığı, sadəliyi ilə seçilən Gülüstan xanımla məni görüşə ruhlandıran bir səbəb də vətənpərvərliyi, bir şəhid ailəsi olaraq Vətənə, elobaya bağlılığıdır.*

*Beləliklə, redaksiyamızın qonağı əməkdar artist, Akademik Opera və Balet Teatrının solisti, Milli Konservatoriyanın və İncəsənət Gimnaziyasının müəllimi səhnəmizin Leylisi, istedadlı xanəndə Gülüstan Əliyevadır.*



Gülüstan xanım söhbətimizə ordumuzun aprel zəfərindən qürur duyduğunu dilə gətirərək başladı. Qeyd etdi ki, 22 ildən sonra cəbhədən gələn xəbərlər xalqımızda çox böyük ruh yüksəkliyi yaratdı. "Baxmayaraq ki, biz həmin günlərdə şəhidlər də verdik, lakin, insanların üzündə illərdən bəri sezilməyən bir sevinc, məğrurluq var idi... Azərbaycanın birinci xanımı Mehriban Əliyeva tərəfindən qəhrəmanlıqla şəhid olan hərbçilərin ruhuna Heydər Məscidində təşkil olunan ehsan mərasiminə dəvət olunmuşdum. Mehriban xanım mərasimdə çıxış edərək torpaqlarımızın azadlığı uğrunda şəhid olan hərbçilərin ailə üzvlərinə, yaxınlarına dərin hüznlə başsağlığı verdi, yaralıların tezliklə sağalmasını arzuladı. Daha sonra şəhid ailələrini bir-bir dinləyərək onların dərdlərinə şərik oldu".

Gülüstan xanımın sözlərinə görə, həmin mərasimdə bir anlıq ömür-gün yoldaşını, onun şəhid olduğu 1991-ci ili xatırlayıb.

- O zaman bizə, şəhid ailələrinə dövlət tərəfindən bu qədər hörmət, diqqət yox idi, - deyir sənətçi. - Cəmiyyətin vətənpərvər ruhda yetişməsində bu amilin də rolu böyükdür. Azərbaycan hamımızındır. Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən ordu quruculuğu siyasətində milli dəyərlərimizin qorunmasına, vətənpərvərlik tərbiyəsinə geniş yer verilir. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun davamlı olaraq ön xətdə olması, ən əziz bayramları səngərdə əsgərlərlə birlikdə keçirməsi, cəmiyyətimizə vətənpərvərlik nümunəsidir. Bu gün Vətənimiz üçün hər cür fədakarlığa hazır olan, hətta canından keçən oğullar var. Vətən uğrunda hər kəs əlindən gələni etməlidir. Heydər Əliyev sarayında keçirilməsi nəzərdə tutulan konsertimi tərəddüd etmədən təxirə saldım, həmin günə kimi şəhidlərimizin yas mərasimi bitmirdi. Çünki, Qarabağ savaşında mən də əzizlərimi itirmişəm. Həm şəhid bacısı, həm də şəhid yoldaşıyam.

Gülüstan xanım üstündən illər keçməsinə baxmayaraq keçirdiyi ağrılı-acılı hissləri bu gun də dilə gətirməkdə çətinlik çəkir. Şəhid ailəsi olaraq bütün belə ailələrin dərdini özünkü bilən xanım müğənni Azərbaycan Silahlı Qüvvələrinin ermeni işğalçılarına verdiyi tutarlı cavabdan, qazanılan zəfərin sevincindən ağızdolusu danışdı.

## Bir ömrə yetəcək sevgi

Sevgi əbədi bir nəğmədir. Heç bir zaman susmayan, kohnəlməyən nəğmə. Bu nəğməni sadəcə könüllər duyur. Əsrlərdir ki, bu nəğmə eyni olaraq qalır. Nə yeni bir not əlavə olunur, nə də bir kəlmə.

Gülüstan xanım da bütün həyatına yetəcək elə bir sevgi yaşayıb ki, üstündən 25 il keçməsinə baxmayaraq, bu gün də o günləri xatırlayanda gözləri gülür.

Tələbəlik illərində tanış olmuşdu Zahidlə. Onun əmisi qızı ilə birgə kirayədə qalıb. Zahid qızın qardaşı ilə tez-tez onlara baş çəkərdi. Bu görüşlərdən birində tanış olurlar. Bir-birilərini bəyənib, sevirlər. Gülüstan xanım deyir ki, Zahid yaraşıqlı, sarışın oğlan idi. Göy gözləri, uzun kirpikləri vardı. Bakı Dövlət Universitetinin hüquq fakültəsində oxuyurdu.

Zahidin çox savadlı, tərbiyəli, mədəni olması onu Gülüstanın gözlərində daha da yüksəklərə qaldırmışdı. Bu tanışlıqdan bir müddət sonra Zabitlər parkında Zahid ona ilk sevgi etirafını etmişdi...

Deyərdim ki, bütün qəhrəmanlıqların təməlində vətənpərvərlik dayanır. Zahid də bu gün onu tanıyanlar tərəfindən əsl vətənpərvər bir insan kimi xatırlanır. Universiteti bitirərkən artıq Vətənimizin başının üzərini qara buludlar almışdı. Çox savadlı olduğu üçün onu Bakıda saxlamaq istəsələr də, bununla razılaşmayaraq təyinatını doğma rayonlarına almışdı. Doğulduğu yurdun ağır zamanında yaxasını kənara çəkib rahat yaşamaq onun xarakterinə yad idi. Cəbrayıl rayonunda cinayət axtarış şöbəsinin rəisi vəzifəsində işləyir. Az bir zamanda tanınaraq, ad-san qazanır.

Ürəkləri bir döyünən gənclər ailə həyatı quraraq Cəbrayılda yaşayırlar. Bu xoş günlərin ömrü isə çox qısa olur. Cəmi 11 ay, yəni 317 gün...

Ömür-gün yoldaşı ilə keçirdiyi son günü isə heç bir zaman unutmayacağını söyləyir müğənni xanım. "O gecə çox pis bir yuxu görmüşdüm. Səhər ayılanda da yuxunun təsirindən uzaqlaşa bilmirdim. Yuxumu Zahidə danışanda dedi ki, bütün günü müharibə haqqında düşünürsən, ondandır. İşə getmək üçün həyətə düşdü. Evimiz ikinci mərtəbədə idi. Bir də eşitdim ki, həyətdən məni çağırır. Eyvana çıxdım. Dedi ki, oğlumu gətir, bir də görüm. Rüfəti qırxı yenicə çıxmışdı. Gətirdim gördü. Və cəmi bir neçə saatdan sonra"...

Müsahibim söhbətə başlayandan özünü toxtaq tutub hisslərini büruzə verməməyə çalışsa da, bu yerdə özünü ovundura bilmir, göz yaşlarına boğulur. Adətən deyirlər ki, vaxt keçdikcə bütün ağrı-acılar, dərdlər azalır, yaralar qaysaqlanır. Amma mən bu fikirlə heç zaman razılaşmamışam. Çünki illər keçdikcə, o insanın yoxluğu daha da dərinləşir, sən onu unuda bilmirsən. Və insan beləcə sevgisi, dərdi ilə baş-başa qalır.

Həyatımızda bizə əziz olan elələri var ki, onları heç kim əvəz edə bilməz. Zahid də məhz belə insanlardan olub. Gülüstan xanımın söhbətindəki bu sözlər isə bunu bir daha təsdiqləyir. "25 il öncə mən həyat yoldaşımı ola bilsin ki, yaraşıqlı, savadlı, mərd bir oğlan kimi tanımışam. Amma illər keçdikcə, bu sevgi dəyişib - bu gün onu artıq bir vətənpərvər kimi, cəmiyyətimiz üçün dəyərli bir insan kimi sevirəm"...

Ölümü, itkini hərə bir cür yaşayır, hərə bir cür qəbul edir. Gülüstan xanım isə hələ də sevdiyi iki insanın həyatda yoxluğu ilə barışa bilmir. And içəndə həyat yoldaşının, qardaşının canına and içir.

## Həyat qurbanlarını özü seçir

Ailə müqəddəs, toxunulmaz bir dünyadır. Onun üçün ailə hər bir şeydən öndə gəlir. Hər bir qadın üçün ilk növbədə ailəsi önəmlidir. Gülüstan xanım deyir ki, bir zamanlar o ailəsi üçün sənətini qurban verməyə razı olub. Lakin həyat qurbanını özü seçir. Onlar əvvəlcədən belə razılaşırlar ki, Gülüstan xanım sənətinin arxasınca getməyəcək. Həyat yoldaşı ona sadəcə "müəllimə" deyərdi. Diplomunu yoldaşı ilə gedib alanda Zahid ona qəribə sual verir. "Fikirləşirsən, mən öləcəm, sən nə vaxtsa işləyəcəksən?" El arasında isə belə bir deyim var ki, alın yazısından qaça bilməzsən.

Düzdür, baş verən faciədən sonra o heç də ilk olaraq səhnətə gəlmədi. Əvvəlcə Zahid Əhmədovun adını daşıyan məktəbdə iki il musiqi müəlliməsi kimi işləyir. O vaxt onda belə bir fikir yaranır ki, yoldaşının sənətini davam etdirsin. Tələbə qəbulu zamanı sənədlərini verir, amma alınmır. Gülüstan xanim deyir ki, görünür, onun alın yazısında tam fərqli bir həyat vardı. Deməli, qurbanları biz yox, həyat özü seçir.

## Muğam xalqımızın sərvətidir

1981-ci ildə keçirilən Gənc İstedadların Respublika Müsabiqəsində hər üç turda qalib olduqdan sonra Yevlaxdan Bakıya - Bülbül adına orta ixtisas musiqi məktəbinə göndərilir. Unudulmaz sənətkarımız xalq artisti, professor İslam Rzayevdən muğamın sirlərini dərindən öyrənir. 1985-ci ildə bu məktəbi fərqlənmə ilə bitirir. Elə həmin il Konservatoriyada açılan muğam sinfinin ilk tələbəsi olur və 1990-cı ildə Konservatoriyanı da fərqlənmə ilə bitirir. Konservatoriyada müəllimi olan xalq artisti, professor Arif Babayevi özünə mənəvi ata bilir. Sənətçi hazırda burada muğam kafedrasının dosentidir.

Hər bir xalqın, millətin ən böyük sərvəti onun mədəni irsidir. Dahi Çin mütəfəkkiri Konfutsi deyirdi ki, bir millətin xarakterini bilmək istəyirsinizsə, o millətin musiqisini dinləyin. Muğam da bizim milli sərvətimizdir. Gülüstan xanım söhbətimizdə bir vaxtlar muğam sənətinin unudulmaq qorxusundan yanğı ilə danışdı. Bildirdi ki, muğamın Azərbaycanın milli sərvəti kimi yenidən şöhrət qazanmasında Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın böyük zəhməti danılmazdır. "Bu gün Azərbaycan muğamı bəşəriyyətin mədəni irsinin şah əsərləri siyahısına salınıb, çox sevindiricidir. Bu, bizim mədəni irsimizə dünya miqyasında göstərilən diqqətin göstəricisidir."

Mənə də elə gəlir ki, bu gün muğam kainatın musiqisidir, çünki yer kürəsinin bütün guşələrinə yayılıb. Onu dinləyən hər kəs elə bil bir sehrin cazibəsinə düşüb mənən saflaşır.

## Səhnəmizin Leylisi

Füzuli yaradıcılığının zirvəsi olan "Leyli və Məcnun" poeması Azərbaycan, eləcə də Şərq və dünya poeziyasının nadir incilərindəndir. Qoca Şərqin ilk operası sayılan bu məhəbbət dastanı bütün dövrlərdə səhnəmizin şah əsəri olub və olacaqdır.

1996-cı ildə müsabiqə yolu ilə Akademik Opera və Balet Teatrına qəbul olunan Gülüstan xanım o vaxtdan teatrda çalışır. Bu günə kimi səhnədə 100 dəfədən çox Leyli rolunu ifa etmiş xanım müğənni bildirir ki, hər dəfə bu rolu tam fərqli hisslərlə oynayıb. "Mizanlar, sözlər eyni qalmasına baxmayaraq, hər dəfə tam ayrı bir sevgili kimi oynamışam. Vaxt, zaman keçdikcə insanın eyni mövzuya baxışı da dəyişir. Leylinin sevgisinə də başqa cür münasibət bəsləyirsən"...

Leyli kədərini qəlbən yaşayan, ruhən duyan və onu məharətlə tamaşaçılara çatdıran Gülüstan xanımın timsalında bu obraz daim xoşagələn, qəbulediləndir. O, bu məhəbbət dastanında yaşanan hissləri tamaşaçılara elə tərzdə çatdırır ki, sanki ilk dəfədir dinləyirsən. Gülüstan xanım Leylinin daxili həyəcanlarını sanki özününküləşdirir, öz duyğuları kimi çatdıra bilir.

Deyirlər ki, Uca Yaradan adama bütün istəklərini, arzularını nəsib etmir. Ümumiyyətlə, həyat mübarizədir. Məhz elə həyat mübarizəsinin qalibi olmaq Gülüstan Əliyevanı xalqın sevimlisinə çevirib.

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
mayor
Bəxtiyar ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 243
Nüsxə 4700